

İLTİMAS SƏMİMİ

## DAHA XOŞ SÖZLƏR BİZİ İSİTMƏZ

Tənhalıq qoxulanan
Bütün fəsillər.
Ünvanı bilinməyən,
Kimsəsiz qocaya bənzəyir.
Kimdən təsəlli umaq?
Ümidi hər şeydən üzülən baxışlar,
Eynən baxışlarımız kimi.
Çırpır özünü misra-misra,
Zamanın yaddaşına.
Zaman sükuta bələnən yollar kimi,
Yollar kirimiş uşağın lal baxışları tək.
Üstümüzə ələnən tənhalıq,
Soyudur qəlbimizi
Daha xoş sözlər bizi isitməz.

***02.01.2018***

## BATAN BİR SƏSƏM

Batdı içimdə bir səs,
Qırıldı bir yol,
Qıfıllandı bir qapı.
Yalanlara özümü zorla
İnandıra bilmədim.
Kömürtək,
Qaralmış ömrümün bəyaz yolları
Dərd qoxulanır.
Yollar məni,
Mən də yolları sevmədim.
Haçansa,
Tanrının yadına düşsəm...
Xatırlayar mənim kimi,
Bir bəxtsiz bəndəni də.
Demə, bütün yollar qüruba sarı imiş,
Mən gecənin qaranlığında
Batan bir səsəm...

***02.01.2018***

## SİLİNMƏYƏN YOLAM

Bağrı çatlayan
Təbəssümlər.
Yarpaq-yarpaq gömülür,
Torpağa.
Böyründə dayandığın
O ağacı tanıyırsanmı?
Başı yerə əyilən,
Budağında
Yarpağı olmayan.
Ümid ağacıdır,
Altında həyat dincəlir...
Mən otların
Yaddaşında su.
Sən suların,
Yaddaşında ot.
İçimizdə arzular
Göyərdikcə,
Yadımıza üfuqlərə
Yazdığımız ilk məktublar
Düşür.
Arxamızca,
Yüyürüb gələn
Yarımçıq qoyduğumuz,
Yollardır.
Sən xatirələrə
Dönən səs.
Mən yaddaşlardan,
Silinməyən yolam.

***05.01.2018***

## XATIRLAMAZ KİMSƏ SƏNİ

Son sözümü deyib,
Çıxıb gedəcəyəm.
Ölüm üstümə ələnən,
Payız yağışıdır.
Soyuq təbəssümlər,
Yolların yaddaşında
Söz - söz donmaqdadır.
Yollar arzuya döndükcə,
Üşüyür içimdə bir səs.
Tənha insanların,
Soyuq baxışları tək.
Açmadığım qapılar,
Hönkür-hönkür ağlayır.
Bu da, gənclik şəkilim,
Gözlərim bulud kimi, dolğun.
Ardımca uzalı qalan əl,
Sənin əlin imiş.
Kövrək təbəssümlü
Kənd uşağı!
Böyüdün
Söz - söz,
amma bitmədi içindəki
İlan-ilan qıvrılan ağrıların.
Daha sən də, gərəksizsən,
Xatırlamaz kimsə səni.

***16.01.2018.***

## BİR UŞAQ SƏSİ

Buludların ətəyində,
Kölgə.
Kölgənin ətəyində yollar,

Yolların ətəyində mən...
İçimdə bir səs,
Səsimdə bir söz.
Buludların altında əyilə-əyilə,
Yol gedir.
Solumda
Sönməkdə olan bir ocaq,
Sağımda,
Suvağı tökülmüş,
Qapısı qıfıllı,
Bir ev.
Evin içərisində,
Bir uşaq səsi.
Eynən ürəyimin səsinə
Bənzəyir.

***05.01.2018***

## SƏSİN BİR KİMSƏYƏ YETMƏZ

Nə qədər çığırsan da,
Səsin bir kimsəyə yetməz.
Bura tənhalıq qoxulanan,
Sükuta bələnmiş ümidlərin.
Torpağa gömülən,
Adsız ünvan, adsız məkan,
Adsız Yer.
Sarıl, o tənha ağaca, bəlkə,
Dilə gəlib danışdı.

***20.01.2018.***

## YOLLAR YARPAQ - YARPAQ DİKSİNİR...

Sağımda qaya,
Solumda sükuta bələnən
Dar bir yol.
Buludların yuxusu qarışdıqca,
Yollar yarpaq-yarpaq diksinir.
Gecənin qaranlığında,
Saçlarımda bir əl gəzir.
Yüyürür ardımca,
Ötən çağları mənə xatırladan
Bir səs.
Mən tənha ağac,
Sən üstümə əsən külək.
Mən qüruba əyilən Günəş,
Sən hələ mənzil başına
Çatmayan yolçu.
Buludların yuxusu qarışdıqca
Yollar yarpaq-yarpaq diksinir...

***12.01.2018***

## DAHA BİR YOL TAPMIRAM

Deyirdin ki,
Yollar ölmür, öldü içimdə.
Bütün yollar,
Çıxıb getməyə.
Daha bir yol tapmıram,
Əldən düşmüş
Ümidlərim payızın xəzəli kimi...
Daha köksümdə ürək də,
Həvəssiz döyünür....

***20.01.2018.***

## SƏNİ XATIRLAYIM

Bütün xatirələrim
İçimdə mürgü vurur,
İçimdə sən də varsan.
Ağrılarıma qarışıb,
Axırsan damarlarımda.
Soyuq baxışların,
Məni üşütdükcə
Ümidim hər şeydən üzülür.
Yollar misra-misra uzanmaqdadır,
Yolların ovucunda.
Oxuduğum sətirlər,
Sənin taleyin imiş.
Qəlbimi isitməyə,
Mənə dəniz gərəkdir.
Suların üzərində uçan
Qağayılara baxa -baxa,
Səni xatırlayım.

***01.01. 2018***

## YERİMƏK ÇƏTİNMİŞ

Ümidlərə bürünə bilmədim,
Daşların,qayaların sükutundan qaçdım,
Hardasa yadıma
Dünyaya yorğun -yorğun,
Baxdığın anlar düşdü.
Hardasa unutduğum,
Xatirələr yüyürdü üstümə.
Hardasa, sənə deyə bilmədyim
Sözlərim sıxdı məni.
Soyudu əllərimdə,
Əllərinin istisi.
Soyudu söz-söz, misra-misra,
Ümidi hər şeydən üzülmüş.
Bir ürəkələ baş-başa ,
Yerimək çətinmiş.

***02. 02.2018.***

## SƏN DƏ RAZILAŞARSAN...

Əvvəl -axır,
Dediklərimlə
Sən də razılaşarsan...
Ümid etmək,
Saman çöpündən
Yapışmaqdır.
Bir az dərin,
Bir az dayaz,
Bir az payız Günəşi.
Bir az bahar yağışı,
Bir az da,
Tənhalıq qoxulanan qış havasıdır.
Kiminin bəxtinə nə düşdü...

***24.01.2018.***

## YOL DA BİR TƏSƏLLİDİR

Burdan başlanır güman,
Burdan başlanır ümid.
Burdan başlanır sevinc,
Yol da bir təsəllidir,
Misra-misra uzanır...

Yarı payız, yarı qış,
Bu da soyuq baxışlar.
Burdan başlanır səhra,
Daha ümid göyərməz.
Tənhalığı qoxulanan,
Payız yağışı kimi...

***25.01.2018.***

## VARAQLARIN YADDAŞINDA

Dənizlə söhbətim tutmadı,
Yollar kirimiş baxdı üzümə.
Daşlar,
Ağaclar dərdimi anlamadı,
Kiridim misra-misra,
Söz-söz varaqların yaddaşında.

***13.01.2018***